tərkibinə bunlar aiddir: fənninin obyekti, predmeti və başqa elmlərlə əlaqəsi, sistemli elmi biliklər; elmi tədqiqatın məntiq və metodologiyasın; elmin gələcək inkişafı üçün onun qanunauyğunluqlarını, tarixini, müasir vəziyyətini yaxşı bilmək; məktəbdə verilən biliklərin, elmlərin əsasını öyrənmək üçün giriş xarakteri daşımasını başa düşmək; biliklərini sərbəst olaraq artırmaq üçün mövzu üzrə kataloqlar, layihələr, biblioqrafik sorğular və göstərişlərdən istifadə etmək.

Riyaziyyat fakültəsinin məzunu ixtisas üzrə hazırlığına əsasən ədəd anlayışının məlum sxem üzrə artması haqqında səlis təsəvvürə malik olmalı; əsas riyazi düsturları, onların aşkarlanması və reallaşdırılmasını, həndəsənin nəzəri prinsipləri və aksiomalarını bilməli; xətti vektor və onun xətt, cəbrlə əlaqəsini, inteqral, onun vəzifələri və əsas növləri haqqında anlayışa malik olmalı, say nəzəriyyəsinin sadə fakt və metodlarını, cəbr və analitik həndəsə, həndəsi quruluşlar, diferensial və inteqral hesablama nəzəriyyələrini, koordinasiya analizi və nisbilik nəzəriyyəsini bilməli, çətin riyazi məsələləri həll etməyi bacarmalı, digər hesablama vərdişlərinə yiyələnməlidir.

Gələcək rus dili müəllimlərinin ixtisas hazırlığına aid tələbləri belə ifadə etmək olar: dil haqqında klassiklərin əsas fikirlərini, dilin təfəkkürlə, xalqın mədəni və ictimai qanunauyğunluqları ilə əlaqəsini, onun tərkibi və inkişafı haqqında biliyə malik olmalı; dilin quruluşu və onun fonetikası, lüğət tərkibi; qrammatikasını başa düşməli; dilin əsas tərkib hissələrini (fonem, morfem, söz, söz birləşməsi, cümlə) bilməli; müasir dilçiliyin əsas problemləri, istiqamətləri və üsullarını bilməli, ədəbi dilin fonetik sistemi, qrammatik quruluşu, leksika, stilistika, orfoepiya, orfoqrafiya, punktuasiya, mürəkkəb mətnlərin orfoqrafik, stilistik, leksik, sintaktik, sözdüzəldici, fonetik, morfoloji təhlilini hərtərəfli və dəqiq təhlil etməyi bacarmalı; ən qədim dövrlərdən bu günə qədər rus dilinin inkişaf mərhələlərini səlis bil-məli, rus dilinin dialektikasını və ləhcələrini, rus danışıq dilinin ümumi və dəyişən elementlərini bilməli; rus ədəbi dilinin müx-təlifliyini (yazı üslubu, şifahi danışıq üslubu, bədii ədəbiyyat üslubu, tələffüz üslubu) bilməli; müxtəlif janrlara mənsub mətnlərin linqvistik təhlilinin texnika və metodikasına yiyələnməlidir.

Rəyçi: prof. F.Rüstəmov

İstifadə edilmiş ədəbiyyat

1. Mərdanov M. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Çaşıoğlu, 2009.

2. Paşayev Ə., Rüstəmov F. Bakı: Pedaqogika, 2002.

3. Əlizadə Ə., Rüstəmov F., Quliyeva K. Müəllim peşəsinin professioqramı. // Azərbaycan müəllimi, 05-11 oktyabr 2000.

4. Həsənov A., Ağayev Ə. Pedaqogika. Bakı: Nasir, 2007.

5. Müəllim hazırlığına yeni yanaşmalar. Bakı: Mütərcim, 2012.

Ш.Азадалиева

Новая модель по подготовке кадровых учителей

Резюме

В статье рассматриваются вопросы, характеризующие современного учителя. Определены основные качества, которым должны отвечать выпускники высших педагогических учебных заведений и требования к нему.

Sh.Azadaliyeva

New model of the preparation of teacher cadres

Summary

With is dealt modern teacher in the article from problems doing define. With is dealt from basic qualities belonging here and demands put forward.

Kurikulum

MÜƏLLİM HAZIRLIĞINDA MÜASİR TƏLƏBLƏR VƏ KURİKULUMLARIN İMKANLARI

Akif Xalıqov

Lənkəran şəhər 6 nömrəli tam orta məktəb-liseyin direktoru, pedaqogika üzrə fəlsəfə doktoru, əməkdar müəllim

Açar sözlər: *İlkin hazırlıq, diplomdan sonrakı hazırlıq, kurikulumlar, kompetensiyalar, müasir yanaşmalar, pedaqoji kateqoriyalar.*

Ключевые слова: *первоначальная подготовка, последипломная, подготовка, курикулумы, компемеции, современные подходы, педагогические категории.*

Key words: *preliminary preparation, after diploma preparation, curriculums, competencies, modern approaches, pedagogical categories.*

Müasir mərhələdə bütün sahələrdə həyata keçirilən iqtisadi, sosial, mədəni islahatların nəticəsi olaraq ölkəmiz dinamik inkişaf yolu ilə inamla irəliləyir, onun beynəlxalq aləmdə nüfuzu güclənir. Respublikamızda hər bir sahədə müşahidə olunan fasiləsiz inkişaf tendensiyası özünü təhsil sektorunda da göstərir. Bu inkişafın əsasında ulu öndər Heydər Əliyevin ideyaları və həmin ideyaların işığında həyata keçirilən aydın və ardıcıl strateji kurs dayanır. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişafa, yüksək nəticələrin əldə edilməsinə geniş imkan və şərait yaradır. Ölkəmizdə aparılan islahatlar təhsil siyasətinin səmərəliliyini artıran nəticələrə gətirib çıxarmışdır. İslahatın qarşıya qoyduğu vəzifələrin uğurla həyata keçirilməsi isə müəllimin pedaqoji – psixoloji hazırlığı onun işə yaradıcı münasibəti və pedaqoji ustalığı ilə çox bağlıdır. Yalnız yüksək savada və intellektual potensiala malik olan, tədris etdiyi fənnin metodikasını, müasir təlim metodlarını mükəmməl bilən, yeni texnologiyalardan yaradıcılıqla istifadə etməyi bacaran müəllim bu işlərin öhdəsindən məharətlə gələ bilər. Tədris prosesində nəzəriyyə ilə praktikanın vəhdəti mühüm amildir. Təlim metodlarını seçərkən tədris fənlərinin xüsusiyyətlərini, dərsin didaktik məqsədini, sinfin hazırlıq səviyyəsini nəzərə almaqla dərsin səmərəli təşkilinə nail olmaq mümkündür. Unudulmamalıdır ki, təlimin tərbiyəedici xarakteri yalnız onun məzmununun ideya-tərbiyə istiqamətləri ilə deyil, həm də tədris işinin metodları və təşkilati formaları, şagirdlərin fəallaşdırılması ilə izah olunur.

Müasir dünyada sürətlə gedən sosial, mədəni və texnoloji dəyişikliklər insanlarda düşüncə tərzinin əhəmiyyətini xeyli artırmışdır. Cəmiyyətin inkişafının hər bir mərhələsində özünəməxsus təfəkkür formalaşır və bu təfəkkür təkcə pedaqoji dəyərləri deyil, həm də fəlsəfi-pedaqoji dəyərləri əks etdirir. Bu meyarlardan qaynaqlanan və uzun

müddət ideoloji ölçülərlə mənalandırılan mədəniyyət ötən əsrin 70-80 –ci illərində yeni xarakter aldı. Mədəniyyətin zəruri tərkib hissəsi kimi təhsil sistemində subyektlərin dialektik rabitəsinə əsaslanan yeni təhsil konsepsiyası meydana gəldi.

Elmi-texniki tərəqqinin inkişafı, təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası onun məzmununun və tədris prosesində tətbiq olunan təlim metodlarının təkmilləşdirilməsi zəruriyyətini yaratmışdır. XX əsrin elmi kifayət qədər əsas verir ki, təhsilimizi yeniləşdirək. Yeniləşmənin özü qeyri-xətti təfəkkür vasitəsi ilə formalaşmalıdır. Yeniləşmənin mahiyyətini necə başa düşmək olar? Onun məzmununa nələr daxildir? Sosioloqlar və psixoloqlar tədqiqatlar nəticəsində belə qərara gəlmişlər ki, iki faktor təhsildə vacibdir. Bunlardan biri personalın keyfiyyəti, ikincisi isə düzgün qiymətləndirmədir. Müəllim hazırlığında nə üçün müasir kurikulumlar əsas götürülür? Əvvəla, müəllimin vəzifəsi cəmiyyətdə oynadığı rolla, onun insan şəxsiyyətinin formalaşmasına böyük təsiri ilə izah edilə bilər. Müəllim cəmiyyətin inkişafında aparıcı funksiyanı yerinə yetirən əsas qüvvədir. O, təkcə tədris proqramı və dərslik əsasında təlim fəaliyyətini təşkil edən şəxs deyil. Onun təsiri həndəsi silsilə ilə müqayisə edilə bilər. Söhbət yaxşı müəllimdən, dərs dediyi şagirdləri, tələbələri özünün, vətənin, bəşəriyyətin gələcəyi bilən və onları buna hazırlamağı bacaran müəllimdən gedir. Bu bacarıq o müəllimdə formalaşır ki, ilkin müəllim hazırlığına, qabiliyyətinə görə qəbul edilib, ümumtəhsil məktəblərində dərs demək üçün bilik və bacarığına görə seçilib. Təbii ki, yüksək peşəkarlığa yalnız ciddi, sistemli hazırlıq yolu ilə nail olmaq mümkündür. Ona görə də məhz müəllim hazırlığında müasir kurikulumun imkanları önə çəkilmişdir.

Ötən əsrin sonlarından başlayaraq bəşəriyyətdə müəllimin rolu məsələsi diqqəti daha ciddi şəkildə cəlb etməyə başlamışdır. S.Spouldonq (ABŞ), A.Olnveros (İspaniya), D.Y.Alles (Şrilanka), V.A.Slastenin (Rusiya) kimi alimlər müəllim hazırlığının müxtəlif problemlərini araşdırmışlar. Personalın vəzifəsi həmişə öyrətməkdir. Öyrətmək üçün üç mərhələni keçirik. Nəyi? Nə üçün? Necə? Etiraf etmək lazımdır ki, indiyə qədər necə öyrətməyimizə daha çox fikir vermişik. Lakin bilməliyik ki, əvvəlcə obyekt müəyyənləşdirilməli və onu nə üçün öyrətməyimiz aydın olmalıdır. XX əsrdə elmin inkişafı bizə öyrətdi ki, kainatda hər şey sistemlidir. Sistemli yanaşma elmə daxil olduğuna görə sistemli mənimsəmə də olmalıdır. Bu amil də kurikulumun əsasını təşkil edir.

Kurikulum dedikdə, təhsilin məzmunu, təhsil texnologiyaların təşkili formaları, düzgün qiymətləndirilməsi və idarə olunmasını başa düşürük və yaxud kurikulum təlim prosesi ilə bağlı bütün fəaliyyətin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir. Kurikulumda şagirdlərin "nəyi bilməli" və "nəyi bacarmalı" olduğunu müəyyənləşdirməklə təlim nəticələrinin məzmun xətlərinin və fəaliyyət bacarıqlarının qarşılıqlı əlaqəsi təqdim edilir. Göründüyü kimi, sinifdə bir dərs saatı da qeyri-dəqiq, mücərrəd məqsədlərə sərf edilmir. Təlimə ayrılmış hər saat gözlənilən böyük məqsədlərin reallaşmasına doğru atılan bir addım kimi dəyərləndirilir. Nəzərdə tutulan bu vəzifənin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün öyrədənin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində müəllim hazırlığı kurikulumun müasir tələblər baxımından təkmilləşdirilməsi vacibdir. Bunun üçün:

- fənlərin inteqrativ formada tədrisinə diqqət artırılmalı;
- ilkin müəllim hazırlığı və ixtisasartırma kurikulumları arasında bağlılıq yaradılmalı;

- təlim üsulları yenidən nəzərdən keçirilməli, təlim və tədris praktikasına İKT də daxil olmaqla, yeni təlim üsulları və texnologiyaları daxil edilməli;
- ibtidai sinif müəllimlərinin hazırlıq kurikulumuna çoxsinifli tədris elementləri də daxil edilməli;
- müəllim hazırlığı kurikulumunda qoşa fənlər üzrə müəllim hazırlığı imkanları genişləndirilməli;
- yeni kurikulumda pedaqoji təcrübənin strukturu və aparılma mexanizmi müəyyən edilməlidir.

Bəşəriyyət yaranan gündən bu günə qədər cəmiyyətdə baş verən hadisələr mürəkkəbləşdikcə və insanların məlumat dairəsi genişləndikcə öyrətmə və öyrənmə də müvafiq olaraq formasını dəyişmiş, daha sistemli, mükəmməl xarakter almağa başlamışdır. O cümlədən təbiətdə baş verən bütün proseslərin ehtimal və statistik xarakterli olması, fizika elminin, energetika, kosmonavtika, nüvə, kompyuter və nanotexnologiyaların və s. tətbiq sərhədlərinin genişlənməsi nəzərə alınaraq, tədris prosesinə yeni müstəvidə yanaşmanın vacibliyi meydana gəlmişdir. Ona görə də müəllim hazırlığına fasiləsiz bir proses kimi baxılmalı, onun mərhələlərlə uzunmüddətli, müvafiq prinsiplər əsasında və strateji fəaliyyət istiqamətləri üzrə aparılması məqsədə müvafiq olardı.

Prioritet sahələr üzrə həyata keçirilməsi nəzərdə tutulan strateji tədbirlərin hər biri müəllim hazırlığı kurikulumunun keyfiyyətinə təsir göstərən amillərdir. Müəllim hazırlığı kurikulumunun quruluşu üzrə bölünməsinə aşağıdakılar daxil edilməlidir.

- Müəllim hazırlığı ilə məşğul olan müəssisələrdə təhsil alanların dərs saatlarında praktiki müəllim hazırlığını təmin edən fənlərə kifayət qədər vaxt ayrılmalı;
- kurikulum müəllim standartlarına uyğun olaraq hazırlanmalı, müəllimin keyfiyyəti və peşəkarlıq səviyyəsini müəyyən edən indikatorlar müəyyənləşdirilməli;
- ilkin müəllim hazırlığı və ixtisasartırma kurikulumları arasında əlaqə yaradılmalı;
- ilkin müəllim hazırlığı zamanı pedaqoji təhsil proqramlarının məzmununda müvafiq dəyişikliklər aparılmalıdır.

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığında monitorinq və keyfiyyətin monitorinqinin aşağıdakı səviyyələrdə aparılması məqsədəuyğundur:

- təhsil müəssisələrinin monitorinqi;
- müəllim hazırlığı proqramlarının (ilkin müəllim hazırlığı, ixtisasartırma və təkmilləşdirmə) monitorinqi;
- sistemdəki müəllimlərin, professor – müəllim heyətinin monitorinqi.

Bu məqsədlə müəllimlərin hazırlanmasının və təkmilləşdirilməsinin həyata keçirilməsi modellərinin nəzərdən keçirilməsi və müəllimlərin peşəkarlıq bacarıqlarının təkmilləşdirilməsində modullaşdırılmış ixtisasartırma proqramlarının tətbiqi vacibdir.

- Mövcud distant təhsil imkanlarının, potensial öyrənənlərlə əlaqə sisteminin keyfiyyətinin təhlili üzrə model;
- Distant təhsil proqramlarının hazırlanması üzrə model;
- Pedaqoji təhsil müəssisələrinin kompyuterləşdirilməsi üzrə model.

Müəllimlərin hazırlanması və təkmilləşdirilməsinin həyata keçirilməsi modelləri əlaqəli şəkildə tənzimlənməlidir. Bu əlaqələr ümumtəhsil məktəbləri və ilkin müəllim hazırlığı müəssisələri və diplomdansonrakı əlavə pedaqoji təhsil müəssisələri arasında şəraitə və maliyyə imkanlarına müvafiq olaraq uzlaşdırılmış proqramlar əsasında təşkil edilir.

Müəllimlərin peşə hazırlığını təkmilləşdirmək məqsədi ilə hər bir metodmərkəz ixtisaslar üzrə məqsədəuyğun texnoloji xəritə tərtib etməlidir. Texnoloji cədvəl müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması

məqsədi ilə əsas parametrləri son dərəcə lakonik və birmənalı formada, makro və mikro vəziyyətlərin sintezi nəticəsində tərtib olunur. Bütün ixtisaslar üzrə texnoloji cədvəl konkret məktəblər üzrə istifadə edilmək üçün məktəbin metodmərkəzinə təqdim olunur. Ancaq hər bir məktəbə seçim hüququ da verilir. Məktəb ona təqdim olunmuş layihə ilə işləməli, ya da özünün texnoloji cədvəlini metodmərkəzə təqdim etməlidir. İş prosesində qazanılan nəticələr layihə ilə uzlaşdırılır və müəllimlərin təkmilləşmə xidməti dəyərləndirilir. Bu mərhələnin ən böyük nəticəsi tədrisin məzmununun yeniləşməsi və zənginləşdirilməsidir. Müəyyən vaxtdan sonra nəticələr hər bir məktəbin metodmərkəzinin direktorunun təhsil şöbəsinin metodmərkəzinə təqdim etdiyi hesabatı ilə nəticələnir. İxtisasartırma sahəsində stimullaşdırıcı amillər və maliyyə dəstəyi də tətbiq olunmalıdır.

Müəllim hazırlığının inkişafı üç mərhələdə həyata keçirilə bilər: 1. Məktəb metodbirləşmələrinin həyata keçirdikləri qabaqcıl təcrübənin öyrənilməsi yolu ilə; 2. Seminarlar və layihələrdə iştiraketmə yolu ilə; 3. İxtisasartırma və yenidənhazırlanma yolu ilə.

Təklif olunan bu imkanların ilkin müəllim hazırlığında və ixtisasartırma təhsilində nəzərə alınması, onların peşəkarlıq səviyyəsinin artırılmasında yardımçı olacağını, müəllim hazırlığında yeni məzmun, forma və üsullarının tətbiqinə təminat verəcəyini düşünürük.

Rəyçi: dos. Ə.Abbasov

İstifadə edilmiş ədəbiyyat

1. Ağayev Ə. Təlim prosesi: Ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.

2. Mehdizadə M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982.

3. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim. 2006.

4. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2006.

5. Süleymanova A. Müasir kurikulumlar. // Kurikulum, 2009, № 1.

6. Сенько Ю. В. Педагогическая технология в герменевтическом круге // М., Педагогика. 2005, № 6.

А.Халыгов

Современные требования в подготовке учителей и возможности курикулумов

Резюме

В статье говорится о современных требованиях в подготовке учителей и о возможностях новых курикулумов. Отмечается важность подготовки учителей в усовермменнствовании курикулумов. А также предлагается ко вниманию мысль о том, как важна непрерывностьэтого процесса на основе соответствующих принципов.

A.Khaligov

Modern demands in teacher preparation and opportunities of curriculums

Summary

It is noted that scientific and technical progress, integration to the world education system caused the importance of improving the content and teaching methods in education. Education in the XX century demands refreshing our education. Therefore curriculum reforms in education have begun. The article is also dedicated to the modern demands in teacher preparation and opportunities of curriculums. It is noted that in order to get achievement teacher preparation is important. Teacher preparation is regarded to be continuous process for a long time.

Metodika, qabaqcıl təcrübə

ПОВЫШЕНИЕ У УЧАЩИХСЯ ИНТЕРЕСА К УРОКАМ ПУТЁМ ИСПОЛЬЗОВАНИЯ ИКТ И ЭЛЕКТРОННЫХ ОБРАЗОВАТЕЛЬНЫХ РЕСУРСОВ

Аида Касумова
Научный работник
Института Проблем Образования

Açar sözlər: *informasiya texnologiyası, müasir təhsil, innovasiya, modellər, strategiya, idraki bacarıqlar.*

Ключевые слова: *информационная технология, современное образование, инновация, модели, стратегия, познавательные способности.*

Key words: *information technology, modern education, innovation, models, strategies, cognitive abilities.*

Объективной необходимостью в условиях современного образования становится создание инновационной модели общего среднего образования, сочетающей лучшие традиции мировой образовательных систем.

Сегодня образование должно обеспечить формирование культуры демократического Азербайджана – подготовку поколения свободных, критически мыслящих, уверенных в себе людей; достижение передовых позиций в глобальной экономической конкуренции; изменение социальной структуры общества, укрепление национальной безопасности и реализацию конституционных прав граждан. Исходя из новой стратегии, изменились образовательные запросы семьи, общества и государства. Новой целью образования теперь является воспитание, социально-педагогическая поддержка становления и развития высоконравственного, ответственного, творческого, инициативного, компетентного гражданина Азербайджана. Достижение этой цели невозможно без широкого внедрения ИКТ-технологий во все сферы жизни.

С изобретением компьютера, а также после создания всемирной компьютерной сети Интернет многие стороны человеческой жизни качественно изменились. Эти изменения коснулись также и образования. В большинстве случаев процесс подготовки уроков в современных школах осуществляется с помощью информационных технологий, с использованием ЭОР (Электронно-образовательные ресурсы).

В наше время компьютерные технологии часто являются незаменимыми во время проведения занятий в школах, так как дают возможность оживить урок, вызываеть интерес к предметам.

Применение информационных технологий, использование электронных образовательных ресурсов в преподавании русского языка и литературы способствует совершенствованию практических умений и навыков, позволяет эффективнее организовать самостоятельную рабо-